UOT 930:314 **HİKMƏT ƏHMƏDOV**

Bakı Dövlət Universiteti Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət elmləri üzrə) kafedrası
"Dünya Azərbaycanlıları: Tarixi demoqrafiya" ETL-nin böyük elmi işçisi, t.ü.f.d.
hikmetakhmedov@bsu.edu.az

XIX ƏSRİN SONU - XX ƏSRİN BİRİNCİ ON İLLİYİNDƏ İRƏVAN ŞƏHƏRİNİN TARİXİ-DEMOQRAFİK MİLLİ TƏRKİBİ, SAVADLILIQ DƏRƏCƏSİ, MƏDƏNİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/257-261

XIXəsrin sonu XX əsrin birinci on illiyində İrəvan şəhərinin tarixi- demoqrafik milli tərkibi, 1828-ci ildən başlayaraq, zamanla köçürülən erməni əhalisinin hesabına dəyişdi. Rusiyanın burada erməni dövləti yaratmaq istəyi azərbaycan türk müsəlman əhalsinin soyqırımları ilə müşahət oludu. Lakin bütün bu təzyiqlərə baxmayaraq İrəvan şəhərində azərbaycanlılar say etibarı ilə azlığa düşsələr də yaşamaqda davam etdilər. Məqalədə XIX əsrin sonu XX əsrin birinci on illiyində İrəvan şəhərinin tarixi-demoqrafik milli tərkibi, savadlılıq dərəcəsi, mədəniyyət və s-dən bəhs olunur.

Açar sözlər: Demoqrafiya, İrəvan şəhəri, mədəniyyət, təhsil, məscid.

Giriş. Osmanlı və Qacar dövlətlərinin XIX əsrin əvvəllərindəki müharibələrdə məğlub olması bu dövlətlərin cənubi Qafqazla əlaqələrinin sona çatmasına səbəb oldu. Azərbaycanın digər şəhərləri olduğu kimi İrəvan şəhərinədə ermənilər yerləşdirilməyə başlandı. Zamanla xristian ermənilərin İrəvan şəhərinə yerləşdirilməsi, burda olan türk müsəlman əhalinin sayının azalmasına səbəb olurdu. Bununla yanaşı İrəvan şəhərində Azərbaycan türkləri də yaşamaqda davam edirdilər.

İkinci Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrinin ikincilər üçün məğlubiyyətlə başa çatması Cənubi Qafqazda fiziki xəritənin dəyişməsinə səbəb oldu. Şimali Azərbaycan xanlıqıarı Rusiya tərəfindən işğal olundu. Lakin Rusiya tərəfi bununla kifayətlənmədi. Onlar həm də Cənubi Qafqazda yaşayan türk müsəlman əhalisinə qarşı "soyuq" müharibə elan etdilər. Belə ki, onların məqsədi Cənubi Qafqazda türk müsəman əhalisinin sayını azaltmaq onların vətənlərini xristian əhalinin hesabına dəyişməkdən ibarət olmuşdur. Cənubi Qafqaza xristian əhalini isə Rusiya imperiyası Qacarlar və Osmanlı dövlətinin ərazilərindən köçürməyə başladılar. Belə ki, Qacarlar dövləti ilə imzalanan Türkmənçay və Osmanlı dövləti ilə imzalanan Ədirnə müqaviləsinin bəndlərində Cənubi Qafqaza ermənilərin köçürülməsinə başlandı.

Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələri nəticəsində Osmanlı və Qacar dövlətlərinin Qafqazla əlaqələri kəsilmiş oldu. Azərbaycanın İran ilə çar Rusiyası arasında bölünməsilə bölgədə uzun müddət davam edəcək Rusiya hökmranlığı dövrü başlamış oldu. Müqavilənin səbəb olduğu ən vacib fəsadlardan da biri erməni problemidir.

Müqavilənin XV maddəsində, Rusiya tərəfindən ilhaq edilən torpaqlara köç haqqı nəzərdə tutulduğundan on minlərlə erməni İrəvan, Naxçıvan və digər ərazilərə köç etdirildi. Rusiya imperiyası özü Cənubi Qafqaza yerləşməklə yanaşı, gələcək "Erməni" dövlətinin də təməlini qoymuş oldu. Bu problemin ağır nəticələri indi də davam etməkdədir (1).

İrəvan qalası 1827-ci il oktyabrın 1-də ermənilərin qala divarlarının zəif yerlərini rus komandanlığına nişan verməsi nəticəsində süqut etdi. İrəvan xanlığının süqutundan sonra Xan sarayında yeni yaradılan "Erməni vilayəti"nin inzibati binası yerləşdi. Rusiya çarı I Nikolayın Şimali Azərbaycan xanlıqlarının axırıncı istehkamı olan əfsanəvi İrəvan qalasını görmək arzusu 1837-ci ildə reallaşdı. Xan sarayında qalan I Nikolay şəhərin müxtəlif təbəqələrinin nümayəndələrini orada qəbul etmişdir. 1853-cü ildə baş verən zəlzələ nəticəsində İrəvan qalasının divarları uçmuşdur. 1864-cü ildə İrəvan qalasından hərbi məqsədlər üçün istifadəyə son qoyulmuşdur (2, s.26).

İrəvan xanlığının süqutundan sonra yerli kübar azərbaycanlı ailələrinin bir hissəsi doğma yerlərini tərk etmiş, həmin dövrdə İrəvanda doğma yurd-yuvasını tərk edən ailələri nəzərə almasaq, azərbaycanlılar 1807 ailə və ermənilər isə 567 ailə olmuşdur. Burada 4 xan, 41 bəy və sultan - azərbaycanlı ailəsi, 8 məlik və ağa-erməni ailəsi, 50 axund və molla, 13 keşiş yaşamişdır.

Ermənistan respublikasının ensiklopediyasında verilən məlumatda göstərilir ki, İrəvanı 438 il azərbaycanlı xanlar idarə etmişlər. Erməni tarixçisi Havanes Şahxatunyan tam dəqiq xronologiya tərtib etmiş və orada göstərmişdir ki, azərbaycanlı hakimlər 1390-cı ildən başlayaraq 1828-ci ilə qədər İrəvan bölgəsində hökmran olmuşlar. Havanes Şahxatunyan tarixi araşdırmalarında bu hakimlərin adlarını və hakimiyyətdə olduqları illəri ardıcıllıqla əks etdirmişdir. Bu siyahıda 49 nəfər xanın adını qeyd etmiş, əvvəlinci xan Əmir Sədd (1390-1410), sonuncular isə (l806-1827) Hüseyn xan və Həsən xan qardaşları olmuşdur (3).

Tarixi Azərbaycan şəhəri olan İrəvanın əhalisi haqqında məlumatları XIX əsrin əvvəllərinədək ayrı-ayrı salnaməçilərin və səyyahların yol qeydlərindən, Osmanlı dövründə tərtib edilmiş vergi dəftərlərindən əldə etmək mümkündür. İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra keçirilən kameral siyahıya almalar, statistik hesabatlar, illik nəşr edilən təqvimlər şəhərin əhalisi haqqında kifayət qədər dolğun məlumat verir. İlk mənbələr İrəvan şəhərində aborigen əhalinin tamamilə Azərbaycan türklərindən ibarət olmasını təsdiq edir. 1873-cü il statistikasına görə İrəvan şəhərində 11.938 nəfər qeydə alınmışdır. Əhalinin 5.805 nəfərini (48,6%) azərbaycanlılar, 5.959 nəfərini (49,9%) ermənilər, 150 nəfərini ruslar (1,3%) təşkil etmişdir. 1897-ci ildə ilk dəfə olaraq əhalinin ümumrusiya siyahıya alınması keçirilmişdi. Həmin vaxt İrəvan şəhərində 29.006 nəfər əhali yaşamışdır ki, onun 43,15%-ni (12.516 nəfər) azərbaycanlılar, 43,19%-ni (12.529 nəfər) ermənilər təşkil edirdi. Statistika göstərir ki, İrəvan şəhərinin daxil olduğu İrəvan qəzasında 2542 nəfər əsilli zadəganlardan 59,04%-ni (1.501 nəfər) azərbaycanlılar , 12,03%-ni (306 nəfər) ermənilər təşkil edirdi.

XIX əsrin sonlarından etbarən Osmanlıda erməni üsyanlarının yatırılması nəticəsində on minlərlə erməni ölkəni tərk edərək Cənubi Qafqaza axışmışdı. Onların böyük bir qismi İrəvanda məskunlaşmışdı. Bu ermənilər daimi məskunlaşdırmaq məqsədilə İrəvanda 1905-1906-cı illərdə 4 dəfə qırğınlar törədilmiş, azərbaycanlıların xeyli hissəsi ya məhv edilmiş, ya da evlərindən didərgin salınmışdı. 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşadığı halda, 1908-ci ildə 1.301 min erməni yaşamışdır. 1914-1916-cı illərdə Cənubi Qafqaza daha 350 min erməni Osmanlıdan gəlib yerləşmişdi ki, onların da bir qismi İrəvanda məskunlaşdıqdan sonra azərbaycanlıların vəziyyəti daha da ağırlaşmışdı. 1918-1920-ci illərdə daşnak hökumətinin hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı əsl soyqırımı törədilmişdi. Şəhərdə tək-tük azərbaycanlı qalmışdı (4, s.30-37). Digər məlumatlara görə, 1858-1897-ci illərdə İrəvanda əhalinin artımı 15827 nəfər, yəni ildə orta hesabla 395 nəfər olmuşdur (bu qaynaqda artımın ancaq xristianlara aid olduğu göstərilmir). Lakin 1897-ci ildən 1904-cü ilədək əhali cəmi 148 nəfər, ildə təxminən 21 nəfər, 1904-cü ildən 1910-cu ilədək isə cəmisi 96 nəfər, ildə 16 nəfər artmışdır. Lakin burada təkcə əhalinin təbii artımı nəzərdə tutulmur. Belə aşağı göstəricilər onunla izah oluna bilər ki, şəhər iqtisadiyyatının ləng inkişafı nəticəsində köçkünlərin əksəriyyəti şəhəri tərk edirdilər. Əhalinin şəhərdən getməsi İrəvan əhalisinin təbii artımının onsuz da yarıtmaz olan nəticələrini "udaraq" əhalinin təbii artımında özünü göstərirdi. 1913-cü ilin məlumatlarına görə, İrəvanda 818 nəfər doğulmuş, 689 nəfər isə vəfat etmişdi. Yəni artım 129 nəfər olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində şəhər əhalisinin dinamikasını izləsək maraqlı mənzərə ortaya çıxacaqdır. Belə ki, 1904-cü ildə İrəvan əhalisi 28910, 1910-cu ildə 32369, 1913-cü ildə isə 29006 nəfər olmuşdur.

Nəticələrin bu formada qalxıb-düşməsi xeyli dərəcədə onunla şərtlənirdi ki, İrəvan şəhəri köçkün ermənilər üçün bir növ bölüşdürmə, aşırım məntəqəsi idi. Məsələn, 1902-ci ildə İrəvanda Osmanlı imperiyasından olan 3896 nəfər erməni qaçqın var idi. XIX əsrin sonu XX əsrin əvvələrində Qafqazda ermənilərin intevsiv şəkildə məskunlaşdırılması Rusiyanın hakim dairələrinin özündə ciddi narazılıqlar dogururdu. Belə ki, İrəvan qubernatoru qraf Tizenhauzen özünün 1896-cı il üçün hesabatında yazırdı: "Osmanlıdakı ixtişaşlarda qaçmış ermənilərin quberniyada cəmləşməsi xalq həyatındakı əlverişsiz hallar sırasına aid edilməlidir. Onların arasında əmək qabiliyyəti olmayan çoxlu qadın, uşaq və qoca var; lakin müxtəlif milli-siyasi nəzəriyyələrdə pozulmuş, rəqabət və köməklə ərköyünləşdirilmiş əmək qabiliyyətli kişilər də işləmək istəməyən tüfeylilərə çevirilmişdilər. Köçkünlərin saxlanılması kifayət qədər vəsaitə malik olmayan yerli əhaliyə ağır təsir göstərirdi (5, s.128-130).

XIX sonu - XX əsrin birinci on illiyində İrəvan şəhərinin mədəni inkişafı da təzyiqlərə məruz qalmasına baxmayaraq inkişaf etmişdir.

XIX əsrin sonları - XX əsri əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. Bağlar diyarı İrəvanda və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş şəkildə Avropaya ixrac edilirdi. Şəhərdə və onun ətrafında 45 dəyirman mövcud idi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanlar şəhərin ən böyük dəyirmanları olmuşdur.

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin və iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Şah Abbas, Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır (6).

1902-ci ildə İrəvan quberniyasının statistika komitəsinin "İrəvan quberniyasının yaddaş kitabçası" çap edilmişdir. Həmin kitabında göstərilir ki, İrəvan quberniyasında 310 məscid mövcuddur ki, onlardan 7-si İrəvan şəhərindədir (Pamyatnaya knizhka Erivanskoy gubernii). Bu gün Qərbi Azərbaycanda mövcud olmuş məscidlərdən yalnız biri - Göy məscid rekonstruksiya edilərək fəaliyyət göstərir. Digər erməni vandalları tərəfindən məscidlər yer üzündən silinmişdir.

1906-1911-ci illərdə İrəvan şəhərinin texniki işləmiş B.Mehrabov şəhərin planını və orada olan memarlıq abidələrinin siyahısını tərtib etmişdir. Mehrabov şəhərdə 8 məscid qeydə almışdır. Həmin məscidlər belə adlanırdı: Göy məscid, Qala məscidi, Təpəbaşı, Şəhər, Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq və Hacı Cəfər bəy məscidi (7, s.2363).

XIX sonu - XX əsrin birinci on illiyində İrəvan şəhərində təhsil münasibətləri də mövcud olmuşdur. Rusiya Şimali Azərbaycanın və o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasını işğal etdikdən sonra, təhsil sistemində yeniliklər etdi. Avropa nümunəsində məktəblər rus dili və mədəniyyətini tədris etməyə başladı. Bu dövrdə İrəvan şəhərində Avropa tipli məktəblərlə yanaşı, məscidlərdə və erməni kilsələrində dini dərslər də tədris edilirdi. Bu zaman dövlət tərəfindən dəstəklənən əsas tədris gimnaziyalarda idi.

1892-ci ilin yanvarına olan məlumata görə İrəvan şəhərində gimnaziyada 245 şagird oxuyurmuş ki, onlar da etnik tərkiblərinə görə bölünmüşlər. 1894-cü il yanvarın 1-nə olan məlumata görə İrəvan gimnaziyasında 253 şagird, 1896-cı il gimnaziyada 280 şagird oxumuşdur. Sonrakı illərdə illərdə kişi gimnaziyasında 1900-cu ildə 326, 1902-ci ildə 376, 1903-cü ildə 383, 1907-ci ildə 678 şagird təhsil almışdır (8, s.668-678).

Bütün bunlarla bərabər, XIX əsrin sonlarında İrəvan şəhərində azərbaycanlı əhali nə qədər çətin olsa da, say tərkibi etibarilə də, habelə kənd təsərrüfatında, ticarətdə və kiçik sənaye müəssisələrində üstün mövqelərini qoruyub saxlaya bilmişdi. İrəvan şəhəri XX əsrə doğru Azərbaycan şəhəri kimi addımlamaqda davam edirdi.

Təhsil sahəsində də mərkəzi hökumət erməni əhalisinə üstün şərait yaratmış, azərbaycanlı əhalinin təhsili dövlətin maraq dairəsində çox az yer tutmuşdur. S.P.Zelinskinin məlumatlarından aydın surətdə görünür ki, İrəvan şəhərinin demək olar ki, əksər məhəllələrində rus və erməni məktəbləri açıldığı halda, azərbaycanlılar üçün yeni təhsil ocaqları demək olar ki, yaradılmamışdı. Azərbaycanlı əhali daha çox məscid məktəblərində və mədrəsələrdəki 8 məktəbdə təhsil almış, əhalinin az bir qismi isə İrəvan şəhərində açılmış rusdilli gimnaziya və progimnaziyalarda təhsillərini davam etdirmişdir. S.P.Zelinskinin İrəvan gimnaziyası, İrəvan şəhər məktəbi, qız məktəbi, İrəvan progimnaziyası haqqındakı ətraflı məlumatları məktəb və pedaqoji fikir tariximizi öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. İrəvan şəhərində Kalbalıxan Naxçıvanskinin təşəbbüsü ilə açılmış məktəb-pansion haqqındakı məlumatlar məktəb tariximizin öyrənilməmiş səhifələrini təşkil edir. S.P.Zelinski həmin məktəbin yaranması tarixçəsini aşağıdakı kimi təsvir etmişdir: "Uşaqların təhsili ilə məşğul olan xanım Stasyuleviç Kalbalıxan Naxçıvanski ilə tanış olmuş və onun övladlarını təhsil vermək üçün qə-

bul etmişdir. Kalbalıxan uşaqlarının təhsil sahəsindəki nailiyyətlərindən razı qalmış və həmin müəlliməyə müsəlman uşaqlarına dərs demək üçün İrəvana və ya Naxçıvana gəlməyi təklif etmiş, bunun üçün öz tərəfindən olacaq köməkliyi nəzərə çatdırmışdır. Xanım Stasyuleviç (Sofya Stasyuleviç) bu təkliflə razılaşmışdır. İrəvan şəhərinə gələn xanım ilk növbədə müsəlman uşaqları üçün pansion açmaqdan ötrü yerli müsəlman xanlarına müraciət etmiş və müsbət cavab almışdır. Onun xoşbəxtliyindən Şəfi bəy adlı bir nəfər müəlliməyə digər uşaqlar üçün örnək olsun deyə özünün iki övladına ödənişli qaydada təhsil verilməsini təklif etmişdir. Ev kirayə edən xanım Stasyuleviç Şəfi bəyin uşaqlarını təhsil vermək üçün qəbul etmişdir. ...Az sonra təhsil alan uşaqların sayı artmış, ikinci ilin sonunda onun himayəsində 15 müsəlman uşağı təlim görmüşdür. Son vaxtlar xanımın böyük ana qayğısı və təlim məharəti sayəsində şagirdlərin sayı 45 nəfərə çatmışdır (9).

XIX əsrin sonlarında indiki Ermənistanda yaşayan azərbaycanlıların ana dilində heç bir qəzet və dərgisi olmayıb. Qərbi Azərbaycan – indiki Ermənistanın ərazisində məskunlaşmış azərbaycanlıların taleyi və tarixi, gündəlik həyatı qarşılıqlı surətdə Azərbaycan, rus, tatar, gürcü, erməni mətbuatında işıqlandırılmışdır (10, s.81).

1899-cu ildə İrəvan İslam Məktəbinin türk (Azərbaycan) dili müəllimi Məmməd Vəli Qəmərlinin 1899-cu ildə İrəvanda Edilson mətbəəsində Azərbaycan dilində "Atalar sözü" kitabı çap olunmuşdur. XX əsrin əvvəlində – 1900-cü ildə Vasaq Mədədovun "Gözə görünməyən şal" vodevili və "Tamahkarlıq düşmən qazanır" komediyası İrəvanda Edilson mətbəəsində Azərbaycan dilində nəşr edilmişdir. İrəvanda dini məzmunlu kitablar da nəşr edilmişdir. İrəvan Müəllimlər Seminariyasının şəriət müəllimi Axund Əbdülhəsən Qazızadənin 4 hissədən ibarət "Dürusi-şəriə" kitabı 1911-ci ildə çap olunmuşdur. Bu dövrdə həm də tədris xarakterli kitablar da çap edilmişdir. Mirzə Məmmədvəli Qəmərli İrəvan ədəbi-mədəni mühitinin tanınmış nümayəndəsi kimi ömrü boyu müəllim işləmişdir. Lakin o, müəllimlik fəaliyyəti ilə yanaşı, bir sıra dəyərli kitabların, o cümlədən "Atalar sözü", "Vətən dili", "İrəvan Quberniyası haqqında xatirələr", eləcə də birinci, ikinci və üçüncü sinifər üçün "Ana dili" dərsliklərinin müəllifi olmuşdur. O, bir neçə vətənpərvər ziyalı ilə birlikdə 1902-ci ildə İrəvanda ilk qızlar məktəbi açmışdır. Bu haqda "Kaspi" qəzeti, bir qədər sonra "Şərqi rus" qəzeti özünün 1903-cü il 14-cü nömrəsində həmin məktəbin şəriət müəllimi Məmmədvəli Qəmərlinskinin məlumatını dərc etmişdir (10, s.48). XX əsrin ilk on illiyində ermənilərin və rusların təzyiqlərinə baxmayaraq, Azərbaycanın türk müsəlman xalqının mədəni inkişafı davam etmişdir. Lakin İrəvan ərazisində ermənilərin say üstünlüyünün çoxalması nəticəsində bu ərazidə ermənilərin təzyiqləri çoxalmışdır.

Nəticə. XIX əsrin sonu - XX əsrin əvvəlləri azərbaycan türk müsəlman əhali üçün heç də uğurlu olmadı. Belə ki, Osmanlı dövlətindən yeni ermənilər İrəvan şəhərinə gəldilər. Buna görə də İrəvan şəhərində say dinamikasında dəyişiklik oldu. 1904-1905-ci illər qırğınları nəticəsində ermənilərin sayı İrəvan şəhərində daha da artmış oldu. Bu demoqrafik böhranla yanaşı İrəvan şəhəri müsəlman türk şəhəri olaraq qalmaqda davam edirdi. İrəvan şəhərində rus gimnaziyaları ilə yanaşı, məscid və mədrəsələrdə də dərslər davam edirdi. Lakin Birinci Dünya müharibəsinin başlaması və rusların Qafqazın etno görüşünü dəyişmək istəkləri burada sonradan ermənilərin dövlət qurmasına səbəb oldu.

ƏDƏBİYYAT

1. Türkmənçay müqaviləsi və onun ağır nəticələri? Azər tac. -www.scince.gov.az [10.04.2025].
2. Nazim Mustafa İrəvan şəhəri, Bakı - «Red N Line» MMC – 2020. - www.aircenter.az [10.04.2025].
3. Ziyəddin Məhərrəmov. İrəvan ədəbi mühitinin XIX əsr və XX əsrin 20-ci illərini əhatə edən dövrünün tarixi özünəməxsusluğu. - www.az.wikibooks.org [10.04.2025].
4. Nazim Mustafa. İrəvan şəhəri, Bakı, «Red N Line» MMC, 2020. - www.aircenter.az [10.04.2025].
5. Hacı Həsənov. XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. Bakı, 2023. - www. tarixinstitutu.az.books [10.04.2025].
6. Nazim Mustafa. Müqəddimə. - www. iravan.preslib.azmuqeddime.html [10.04.2025].
7. Nazim Mustafa. İrəvan şəhərində İslam irsinə qarşı erməni vandalizmi. cild 11, №4, August 2024. - www. dergipark.org.trtrdownloadarticle-file41831922 [10.04.2025].

8. Elçin Qarayev. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında). Bakı, 2024. - www.tarixinstitutu.az [10.04.2025].
9. İsa Həbibbəyli. 525-ci qəzet.- 2020.- 14 oktyabr.- S.14-16. - www.anl.azdownmeqale5252020 oktyabr141.htm [10.04.2025].
10. İbrahim Bayramov. Qədim Azərbaycan şəhəri İrəvan. Ankara, 2023. - www.iksadyayinevi.com [10.04.2025].

ХИКМЕТ АХМЕДОВ
Бакинский Государственный Университет, Исторический Факультет, кафедра Истории Азербайджана (Естественные науки), Старший научный сотрудник Научно-исследовательской лаборатории «Азербайджанцы мира: историческая демография», доктор философии по историческим наукам

ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЙ НАЦИОНАЛЬНЫЙ СОСТАВ, УРОВЕНЬ ГРАМОТНОСТИ И КУЛЬТУРА ГОРОДА ЕРЕВАНА В КОНЦЕ XIX ВЕКА - ПЕРВОМ ДЕСЯТИЛЕТИИ XX ВЕКА

В конце XIX века, в первом десятилетии XX века, историко-демографический национальный состав города Еревана изменился, начиная с 1828 года, за счет переселившегося с течением времени армянского населения. Желание России создать здесь армянское государство было отмечено геноцидом турецкого мусульманского населения Азербайджана. Однако, несмотря на все это давление, азербайджанцы продолжали жить в городе Ереване, хотя и стали меньшинством по численности. В статье рассматривается история города Еревана в первые десять лет XIX-XX веков, его демографический состав, уровень грамотности, культура и т.д.

Ключевые слова: Демография, Иреван город, культура, образования, мечит.

HIKMET AHMADOV
Baku State University, Faculty of History, Department of History of Azerbaijan (Natural Sciences), Senior Researcher of the Research Laboratory "Azerbaijanis of the World: Historical Demography", Ph.D

HISTORICAL-DEMOGRAPHIC AND NATIONAL COMPOSITION, LEVEL OF LITERACY, CULTURE OF THE CITY OF YEREVAN IN THE XIX-XX CENTURIES

At the end of the XIX century and the first decade of the XX century, the historical and demographic national composition of the city of Yerevan changed over time, starting from 1828, due to the Armenian population that was resettled. Russia's desire to create an Armenian state here was accompanied by the genocide of the Azerbaijani Turkish Muslim population. However, despite all these pressures, Azerbaijanis continued to live in Yerevan, although they became a numerical minority. The article discusses the historical and demographic national composition, literacy rate, culture, etc. of the city of Yerevan in the first decade of the XIX and XX centuries.

Keywords: Demography, Erivan cities, culture, education, minaret.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Atamoğlan Məmmədli, t.ü.f.d. Məmmədağa Baxışov.